№ 165 (645. Butun elqələrin proletarlarь birləşin! 2 Kəpiq.

# Ꞡənc Işci.

Seşənbə 19 AVGYST 1930 il | ALKꞠI. M. və Baqь Komitələrinin ꞡundəliq gazetəsi | Idarə və kontoranьn adresi Kommynist quçəsi ev № 33 Rustvor 3. telefon № 40-02.

# MƏDƏNI GALIBIJJƏT JOLLARЬNDA

Ɵzbəqlərin milli dram tearosy Baqьda ez gostrollarьnь verir. Azərbajcan turq əməqçilərini kardaş Ɵzbəqstan milli sənaje' nəfisəsilə tanьş etməq uçun ꞡeturulən by bejuq təşəbbus alkьşlara nail olmalьdьr.

Ɵzbəqstanьn ꞡənc milli teatrosy 27-nci illərdə ezunu təşqil edə bilmişdir.

Byndan kabaksa Ɵzbəqstanda daha 1913-ncu ildən teatro hərəqatь, teatro sən'əti bir həvəsqar sufətilə davam etmişdir. 13-ncu ildə birinci ezbəq dramatorgy **Məmyd Xoca Bəhbydynyn** „Purquş" adlь əsəri səhnəjə kojylmyşdyr. By əsərlə Ɵzbəqstanьn teatro həvəsqarlьgь başlanmьşdьr. Byzaman Azərbajcan həvsqarlarьndan **Əliəsqər Əsqərovyn təhti idarəsində** byrada bir dərnəq təşqil olynmyşdyr. „Tyran" adьnda olan by cəmijjətdə „Lejli Məcnyn" „Əsli Qərəm" „Musibət Fəxrəddin" adlь Azərbajcan əsərləri byrada ojnanьlmьşdьr. Tyran cəmijjətinin rezissorlygyny Azərbajcanьn muktədir aktjorlarьndan **Sidki Ryhylla** aparmьşdьr.

Tyran cəmijjəti inkьlab illərinə kədər dəvam etmiş və byrada **Nizaməddin Xacə Bədrəddin. Agamov** qibi həvəsqarlar bejuq çətinliqlər ilə iştiraq etmişlər. 18-nci ildən sonra Tyran teatro cəmijjətindən Karl Marks teatrosy ismilə saf artistlər dəstəl ajrьlьr. 20-nci ildə Turqustan məarif **komisarlьgь tərəfindən Karl Marks** teatrosy hequmət budcəsinə daxьl edilmişdir.

20-nci ildən 23-nci ilə kədər by tryppa dagьlmьş və 23-ncu ildə jenidən **təşqil olynmyşdyr. By zamanlar** Moskvada ezbəq ꞡənc həvəsqarlarь uçun dramatik bir stydija açьlmьşdьr. By stydjanь 21 ꞡənc ezbəq aktjory bitirmiş və 3 ildən sonra Ɵzbəqstana kajьtmьşlardьr. Jerli muktədir aktjorlarьn iştiraqь ilə stydijanь kyrtarmьş ꞡənclər, Byxara və Karl Marks adьnda teatro təşqil etmişlər.

27-nci ildə isə by teatrolar məhqəmləşərəq, elmi mutəşqqil bir ezbəq **teatrosy əmələ ꞡəlmişdir. By vəkta** kədər ezbəq səhnələrində şimali turq **kьzlarь, tatar kьzlarь ojnajьrlardь.** 27-nci ildən sonra ezbəq səhnəsinə məqtəb kyrtarmьş 7 ezbəq aktrisasь cəlb edilmişdir.

Ɵzbəq teatrosynyn joly 29-ncy ilə kədər eksprement izlərində olmyşdyr. 29-ncy ildən sonra teatro ez çəhrəsini ꞡeştərə bilmiş və teatro realizm joly na duşmuşdur.

Teatro əvvəl zamanlar səhnədə həmişə təqrar olynan bə'zi „Jarkьn aj", „Myştym zor" qibi dramlarь məfqyrəvi nəkteji nəzərdən jaramadьklarьndan səhnədən çьkarьlmьşlar.

Teatronyn imdiqi ojnanьlan əsərləri ezbəq həjatьna yjgyn orzinal əsərlər və rys proletar jazьçьlarьnьn əsərlərindən tərcumələrdir.

Ɵzbəq kьzlarьnьn „əsarət arkalь, pyl arkalь bajlarьna» satьlmasьndan bəhs edən opporetta, mysiki dramasь «Həlimə» 19-cy ildən by vakta kədər ojnanьlan və Ɵzbəqstanьn ən popyljar dramlarьndan sajьlan bir əsərdir. „Həlimə" ezbəq inkьlab taertosy tərəfindən səhnəjə kojylyr. Byndan başka Byxara qəntlilərinin səfil həjatьndan əmrlərin zulmlərindən bəhs edən «Arslan» əsəri teatro tərəfindən ojnanьlmьş və neçə dəf'ələrlə alkьşa nail olmyşdyr. „Arslan" əsəri ezbəq pedagog və dramatyrglarьndan «Fitrət" tərəfindən kələmə alьnmьşdьr. Byndan başka «Lajkalar», «Taxtaşyngyjalarь", „Hucym", „Iqi kommynist" və „Kьjam" qibi orzenal əsərlər vardьr.

Ꞡənc ezbəq teatrosy by az jaşь ilə və ilq zamanlarda qeçirdiji əsər kьtlьgь ilə barabar çalьşmьş və ez jolynda bejuq muvəffəkijjətlər əldə etmişdir. Teatronyn „Hucym" adlь əsər Ɵzbəqistanda olan əsqiliqlə jenilijin çarpьşdьgьnь isbat edir. «Hucym» pijesi ezbəq kadьnьn ꞡəniş əməqçi qutləsi ilə əl-ələ verməsini və kommynist firkəsinin rəhbərliji altьnda ez azadlьgь ygrynda apardьgь bejuq mubarəzədən bir parçajь tasvir edir.

Əsərdə ez parancasьnьn (çadrasьnьn) atьlmasь ygrynda mubarəzə edən ezbəq kadьnь həjatьnda komsomolyn da bejuq jer dytdygy ajdьnlaşdьrьlьr. Əsər teatronyn baş rezissory Yjgyr tərəfindən məzhəqə tərzində mysiki dramasь şəqilinə salьnmьşdьr. Əsərdə olan Işan, murudlər, təbib və başka mollalarьn tipi Yjgyr tərəfindən çok ꞡezəl xarakterizə edilmiş və jaradьlmьşdьr. Rezisor by əsərə verdiji kyrylyşda son yslybdadьr. Əsər mysikisilə də, kyrylyşy ilə də ezbəq teatrosynyn muvəffəkijjətlərini əqs edə bilir. Yjgyr joldaşьn butun məharəti byrada ꞡezə çarpa bilir. Byndan sonra jenə Yjgyr tərəfindən səhnə' tərtibatьna salьnmьş „Iqi kommynist" pijesini kejd etməlidir.

Pijesin mevzyy orta Asjada şyralar haqimijjəti əlejhinə çьkmьş əqs-nikьlabçь „basmaçь" dəstələrlə olynan mubarəzədən alьnmьşdьr. Kьzьl ordynyn ꞡəniş işçi, qəntli qutləsinin jardьmь ilə yzyn yzadьja mubarəzəsi nəticəsində başmaçьlar məglyb olyrlar. Pijes by vyryşmanь və galibijjəti çok ꞡezəl və kuvvətli təsvir edir. „Iqi kommynist" pijesində iştiraq edən bə'zi kuvvətli aktjorlarь kejd etməq lazьmdьr: **Hidajatov, Tabibyllajev** və xysysən Syltanova Kajymov çok bejuq muvəffəkijjətlər kazana bildilər.

Ɵzbəq teatrosy Azərbajcan əməqçilərini ezbəq sən'əti ilə tanьş edə bildi. Kardaş Ɵzbəqistan cumhyrijjəti sənaji' nəfisə cəhətdən bejuq jollar dyta bilmiş və dajimi irəriləjir.

Ɵzbəq teatrosynyn son sur'ətlə iləri ꞡetdiji şubhəsizdir.

Sabit.



**Ɵzbəq tiatrosynyn baş rezisory və jaradьcьsь «Yjgyr».**



**2 kommynist pijesində kommynist Arslanьn basmaçьlar tərəfindən dytylmasь.**